AZƏBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# "Şəxsiyyətin azadlığı və məsuliyyəti"

İxtisas kursunun

(bakalavr pilləsi üçün)

## PROQRAMI

Bakı Dövlət Universiteti rektorunun

19.04.2019-ci il tarixli R-45 saylı əmri

ilə nəşr hüququ verilmişdir



WPS Office ile Düzenle

BAKI - 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Fəlsəfə kafedrası

İxtisas: 050202 – Fəlsəfə

# ŞƏXSİYYƏTİN AZADLIĞI VƏ MƏSULİYYƏTİ

Təhsilin bakalavr pilləsi üçün

P R O Q R A M



WPS Office ile Düzenle

BAKI – 2018

Proqramı hazırlayanlar: f.ü.f.d. Məcidova N.H.

Rəyçilər: dos. Tağıyev A.İ.



WPS Office ile Düzenle

## Giriş

Şəxsiyyətin problemi, tarixi prosesin gedişində onun azadlığı və məsuliyyəti ilə bağlı məsələlər bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində olmuşdur, müasir dövrdə də bu problemə maraq azalmamışdır. Müstəqillik əldə etdikdən sonra ölkəmizin cəmiyyət həyatının bütün sferalarında əsaslı dəyişiklər etməklə hüquqi dövlət və vətəndaş cəmiyyəti qurmaq strateji məqsədi həyata keçirilməyə başladı.

Qeyd olunan mürəkkəb və geniş miqyaslı vəzifənin uğurlu həlli sosial-fəlsəfi tədqiqatlar sahəsində də vaxtı çatmış problemlərin araşdırılmasını tələb edir. Belə problemlər sırasında şəxsiyyətin azadlığı və məsuliyyəti xüsusi önəm kəsb edir. Hər şeydən əvvəl qeyd olunmalıdır ki, ümumbəşəri universal dəyərlər sistemində xüsusi yer tutan şəxsiyyət azadlığı, ümumi və mücərrəd məzmuna malik olmayıb, konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası, mövcud ictimai quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir.

Azadlıq problemi ayrılmaz şəkildə insan ilə bağlıdır. Demək olar ki, bu - bəşəriyyətin əbədi mövzusudur. Özünəməxsus sirli enerjiyə malik olaraq azadlıq öz tarixi boyunca insanı özün cəlb edir. Azadlıq fenomeninin özünü insanlar fərqli görür, buna görə - azadlıq nədir? – sualına birmənalı cavab yoxdur, və yəqin ki, olmayacaqdır. Eyni zamanda azadlıq haqqında bu və ya digər təsəvvürü doqmatik qəbul etmək olmaz, onun haqqında müxtəlif, bəzən bir-birinə əks olan fikirlər arasında gedən daimi dialoqda azadlıq haqqında həqiqəti axtarmaq lazımdır. Hal-hazırda bu problem xüsusilə aktualdır. Çox böyük nailiyyətlərə baxmayaraq konkret insan nəinki azad olmur, əksinə müasir dünyada əsir halına düşür.  Adi insan azadlıq əldə etmir, E. Frommun dili ilə desək, azadlıqdan qaçır; o öz həyatında azadlığı reallaşdırmağa qadir deyil. İnsan əvvəlki kimi özünü azad hiss etmir. Bu niyə baş verir?

İnsanın mövcudluğunun bütün zamanlarında "azadlıq" anlayışına mürəkkəb, olduqca



WPS Office ile Düzenle

ziddiyyətli və reallıqla çətin müqayisə edilə bilən bir tərif kimi baxılırdı. Dini, fəlsəfi, təbiət elmləri baxımından bu anlayışı mürəkkəblik dərəcəsinə görə insan həyatının mənasını ifadə edən əlamətlərlə, insanın təbiət və cəmiyyətin onun üzərinə qoyduğu öhdəlikləri yerinə yetirməsi ilə əlaqəli çox mühüm tariflərlə müqayisə edirlər. Zamanla, insan cəmiyyəti inkişaf etdikcə bu tərifə olan məna yükü nəinki nisbətən, insan cəmiyyətinin şərtlərinə uyğun olaraq dəyişmişdir; bu dəyişiklik bu günə qədər daimi artma, mürəkkəbləşmə xarakterini daşıyır.

"Şəxsiyyətin azadlığı və məsuliyyəti" fənni üzrə olan tədris vəsaiti 30 saatlıq mühazirə və 30 saatlıq seminar dərslərinin mövzularını əhatə edir.

**Fənnin mənimsənilməsi məqsədləri**.

Kursun əsas məqsədi azadlıq ideyasının Şərq və Qərb fikir tarixində qoyuluşuna arxalanmaqla, onun müasir sosial nəzəriyyədə yerini və rolunu açmaq, mənəvi-əxlaqi və hüquqi səpgilərini hərtərəfli araşdırmaq, digər ümumbəşəri dəyərlər və sosial normalar ilə qarşılıqlı münasibətlərini aşkara çıxarmaq təşkil edir.

**Digər fənlər strukturunda fənnin yeri**

Bu gün respublikamızın elm, təhsil ocaqlarında "şəxsiyyətin azadlığı və məsuliyyəti" fənninin tədqiq və tədrisinə böyük ehtiyac duyulur. Bütün bu deyilənləri və obyektiv reallıqları, təhsil alan tələbə gənclərin şəxsiyyət azadlığına və məsuliyyətinə olan marağı və tələbatı ödəmək məqsədilə müəllif Azərbaycan təhsil sistemində ilk dəfə olaraq "şəxsiyyətin azadlığı və məsuliyyəti" fənninin tədris metodikası adlı tədris vəsaitini işləyib hazırlamış və sizlərə təqdim edir. Tədris vəsaitində diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, burada işlənilən mövzular əsasən Bakı Dövlət Universitetində və bir sıra ali məktəblərdə mövcud olan ixtisasların spesifikasına uyğun şəkildə işlənib hazırlanmış, həmçinin "şəxsiyyətin azadlığı və məsuliyyəti" fənninin tədrisində son illərin əldə edilmiş uğurlu nəticələri nəzərə alınmışdır.

Fənnin mənimsənilməsi nəticəsində tələbələr

**Bilməlidir:**

-Şərq və Qərb fəlsəfi fikir tarixində azadlıq ideyasının təkamülü prosesinin əsas mərhələlərini izləmək, onun bu fenomenin müasir anlamına təsirini üzə çıxarmaq;

-azadlığın müasir sosial-fəlsəfi konsepsiyasının mahiyyətini açmaq. Onun struktur fazalarını



WPS Office ile Düzenle

və növlərini təhlil etmək;

-azadlığın, digər ümumbəşəri dəyərlər olan demokratiya, sosial ədalət və humanizm ilə qarşılıqlı münasibətlərini aşkara çıxarmaq;

-sosial azadlığı, fərdi və ictimai maraqları uzlaşdırma üsulu kimi səciyyələndirən tərəfləri müəyyənləşdirmək və tədqiq etmək;

**Bacarmalıdır:**

-azadlığın sosial-fəlsəfi təhlilinin əsas metodoloji və ümumnəzəri prinsiplərini müəyyən etmək;

-fərdi azadlığın ictimai münaibətlər sistemində yerini və rolunu açmaq;

-ictimai və milli azadlığı qarşılıqlı əlaqədə təhlil etmək;

-azadlığın mənlikşüuru və sosial normalar ilə münasibətlərini üzə çıxarmaq;

-açıq cəmiyyətdə keçid dövründə azadlığın yeni keyfiyyət məzmununu açmaq, onu müasir sosial zərurət müstəvisində öyrənmək;

**Səriştələrə yiyələnməlidir**:

-azadlıq ilə məsuliyyətin və özünüməhdudlaşdırmanın ayrılmaz əlaqəliliyini açıb göstərmək;

-azadlıq ilə insanın mənəvi zənginləşməsini ifadə edən tərəflər (mənəvilik keyfiyyəti, mənəvi ideal, əxlaq, mənəvi dəyərlər) arasında qarşılıqlı əlaqələri açmaq;

-azadlığı müasir əxlaqi-hüquq münasibətlər səpgisində araşdırmaq, onun reallaşmasında indiki hüqq sisteminin imkanlarını təhlil etmək;

-hüququn əxlaqiliyinin, onların qarşılıqlı tamamlanması prinsipinin azadlığa təsirini araşdırmaq.

## "ŞƏXSİYYƏTİN AZADLIĞI VƏ MƏSULİYYƏTİ" kursu üzrə mövzuların və saatların şəbəkəsi



WPS Office ile Düzenle

| № | MÖVZULAR | Saatların sayı Mühazirə | Saatların sayı Məşğələ |
|---|---|---|---|
| 1 | Fəlsəfədə şəxsiyyət problemi | 2s | 2s |
| 2 | Şəxsiyyətin azadlığı fəlsəfənin kateqoriyası kimi | 2s | 2s |
| 3 | Azadlıq konsepsiyaların təsnifatı. | 2s | 2s |
| 4 | Azadlığın strukturu | 2s | 2s |
| 5 | Qədim Yunan fəlsəfəsində şəxsiyyət azadlığı anlayışına dair baxışlar | 2s | 2s |
| 6 | Orta əsr qərb fəlsəfəsində iradə azadlığı. İntibah dövrün fəlsəfi konsepsiyalarında azadlıq problemi. | 2s | 2s |
| 7 | İslam fəlsəfəsində iradə azadlığı probleminin qoyuluşu. | 2s | 2s |
| 8 | Yeni dövr və maarifçilik dövrdə şəxsiyyət azadlığı problemi. | 2s | 2s |
| 9 | Şəxsiyyət azadlığı problemi klassik alman fəlsəfəsində | 2s | 2s |
| 10 | İrrasionalizm fəlsəfəsində şəxsiyyətin azadlığı | 2s | 2s |
| 11 | Məsuliyyətin anlayışı, və onun transformasiyası. | 2s | 2s |
| 12 | Şəxsiyyəin azadlığı və məsuliyyətin vəhdəti | 2s | 2s |
| 13 | Şəxiyyət azadlığı və məsuliyyəti müasir dövrün prizmasından | 4s | 4s |
| 14 | Demokratiya şəraitində azadlığın digər ümumbəşəri dəyərlər ilə münasibətləri | 2s | 2s |
| | CƏMİ | 30s | 30s |
| | YEKUNU | 60 | s |



WPS Office ile Düzenle

**MÖVZU I:** FƏLSƏFƏDƏ ŞƏXSİYYƏT PROBLEMİ. (2 s)

Şəxsiyyət anlayışı. Şəxsiyət ictimai fəaliyyətin müxtəlif sahələrinin yaradıcı subyektidir. Fəlsəfədə şəxsiyyət problemi bir neçə məsələni əhatə edir: insanın dünyada tutduğu yer, onun mahiyyəti, seçim imkanlarının, sosial məsuliyyətinin həddləri və s.. şəxsiyyətin başlıca keyfiyyəti – iradə azadlığıdır.

Şəxsiyyətin strukturu və tipologiyası. Şəxsiyyətin malik olduğu dəyərlər onun dəyərlər oriyentasiyası sistemini əmələ gətirir. Bu münasibətdə şəxsiyyətin malik olduğu mütləq dəyərlər: həyatın mənası, xeyir, ədalət, gözəllik, həqiqət, azadlıq və sair müstəsna əhəmiyyət kəsb edir.

Şəxsiyyətin sosiallaşması və soial dəyərlər. insanın həyat fəaliyyəti bütöv bir tam kimi təhlil edilməsi. İnsanı şəxsiyyət kimi səciyyələndirən cəhətlər. Şəxsiyyətin sosial strukturu. Şəxsiyyətin fəallığının mənbəyini onun tələbatı təşkil edir.

Fəlsəfədə şəxsiyyət problemi. Şəxsiyyət anlayışının sosial fəlsəfi təhlili baxımından ilk öncə"insan”, ”fərd”və”şəxsiyyət”anlayışlarının konkret müqayisəli izahı. Insanın sosial-fəaliyyət mahiyyəti. Müasir fəlsəfi fikirdə şəxsiyyət haqqında iki başlıca konsepsiya mövcuddur. Birinci konsepsiya şəxsiyyəti insanın funksional xüsusiyyətləri və ya rolu baxımdan qiymətləndirir. Digər konsepsiyaya görə şəxsiyyət mahiyyəti ilə səciyyələnir.

**MÖVZU II:** ŞƏXSİYYƏT AZADLIĞI FƏLSƏFƏNİN KATEQORİYASI KİMİ. (2 s)

Ümumbəşəri universal dəyərlər sistemində xüsusi yer tutan azadlıq, ümumi və mücərrəd məzmuna malik olmayıb, konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası, mövcud ictimai



WPS Office ile Düzenle

quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir. Ümumi mənada yanaşdıqda şəxsiyyət azadlığı sosial subyekt kimi götürülən fərdin tələbatları ilə onun yaradıcı və dəyişdirici fəaliyyətinin qarşılıqlı əlaqələrində reallaşdırılır. O, ikiqat determinasiyaya (obyektiv və subyektiv) malikdir.

Fəlsəfə, azadlıq anlayışının qnoseoloji və sosioloji təhlilini verərkən, onları nisbi müstəqil, eyni zamanda bir-birilə ayrılmaz vəhdətdə götürür. Azadlıq sosial-fəlsəfi anlayışlar və kateqoriyalar sistemində xüsusi yeri tutur. Azadlıq mövcud cəmiyyətin yaratdığı şərait və imkanlar çərçivəsində insanın, biliklərə və sosial təcrübəyə əsaslanmaqla, malik olduğu potensial həyat qüvvələrini öz tələbatlarını, maraqlarını və arzularını fəal və sərbəst reallaşdırmaq qabiliyyətidir.

Azadlığın ümumfəlsəfi anlamı onu sosial zərurət ilə ayrılmaz əlaqədə, götürərək, sonuncunun dərk olunması kimi səciyyələndirir. Müasir azadlıq ilə sosial zərurətin əlaqələrini araşdırarkən öncə vurğulanmalıdır ki, onun mexanizmi çox mürəkkəb xarakter daşıyır. Onun təzahür formaları sırasında aşağıdakılar xüsusi yer tutur: sosial labüdlük, sosial tələbat və mənafelər, sosial problem, sosial məqsəd və vəzifə, sosial təsadüf.

Azadlığın sosial məzmununda "iradə azadlığı" anlayışı təməl xarakteri daşıyır. Iradənin çox mühüm keyfiyyəti, onun nisbi müstəqilliyə malik olmasıdır. Iradə, insanın ayrılmaz və çox mühüm tərəfidir. Cəmiyyət üzvünün heyvanat aləmindən əsas fərqləndirən biri ondan ibarətdir ki, o müxtəlif alternativlər, xeyir və şər yönümlü hərəkətlər arasında azad seçim edə bilir. Bu keyfiyyət məhz iradə sayəsində mümkün olur.

## MÖVZU III. FƏLSƏFƏDƏ AZADLIĞIN TƏSNİFATI. (2 s)

İndeterministlər belə bir fikrə əsaslanır ki, aləmdə, həm də cəmiyyətdə heç bir hadisə mütləq təkrar olunmursa, deməli, orada nə zərurət, nə də



WPS Office ile Düzenle

qanunauyğunluq vardır. Real gerçəklikdə yaşayan insanın azadlığını təbiətin, cəmiyyətin və hətta özünün də fövgündə duran abstrakt bir keyfiyyətə çevirir. Bunlar azadlıq-zərurət qarşılığından çıxa bilmədiklərinə görə, ikinci halda insanı yaşadığı təbii və ictimai mühitin köləsinə, onun istək və arzusundan, iradəsindən asılı olmayan sərt zəruri hadisələr yığınının "əlində oyuncağa", sadəcə bir vasitəyə çevrirlər.

Təbiətdə, cəmiyyətdə, insanın və sosial birliyin həyatında hər bir hadisə, hər bir proses ciddi və sərt qanunauyğunluqlara tabe olduğuna, onlara müvafiq baş verdiyinə görə insanın hərəkət və davranışlarında, çoxsahəli fəaliyyətində cəmiyyətin mövcudluğu və inkişafında heç bir azadlıq ola bilməz.

Fiziki azadlıq növünü iki səviyyədə izah edək. a) insan fərdinə nəzərən fiziki azadlıq o deməkdir ki, onun hər bir hərəkəti etməsinə heç bir maddi-fiziki maneə yoxdur. Aydındır ki, bu azadlıq həmişə nisbi və şərti xarakter daşıdığından məhdud olur b) İctimai mənada fiziki azadlıq bütövlükdə cəmiyyətin, xalqın, millətin, sosial qrupun və sosial birliklərin mövcudluğu, fəaliyyət və inkişafına mane olan fiziki məhdudlaşdırıcıların olmasıdır.

Azadlıq biososial varlıq olan insanda şüurun yaranması ilə başlayır. Qəti şəkildə söyləmək olar ki, hər bir tarixi dövrdə yaşayan insanın azadlıq dərəcəsi onun bilik dairəsi və paktik imkanları çərçivəsi ilə ölçülür. Buradan aydın görünür ki, mütləq azadlıq anlayışı düzgün məzmun daşımır. Insanın ətraf aləmi dərk etməsi prosesi və deməli, onun intellektual azadlığı həmişə şərti və nisbi olur.

## MÖVZU IV: AZADLIĞIN STRUKTURU. (2 s)

Azadlığı sistem kimi təhlil etmək, aşağıdaki məsələləri araşdırmaq lazımdır: 1)onun quruluşu, 2)onu təşkil edən elementləri seçib ayırmaq,



WPS Office ile Düzenle

3)bütöv tamın daxilində onların yerinə yetirdiyi funksiyaları müəyyənləşdirmək, 4)azadlığı bütöv bir tam kimi qoruyub saxlayan və təkrar istehsalını təmin edən hissələrinin qarşılıqlı surətdə bir-birilə vasitələnməsi prosesini açmaq, 5)bu prosesin özinkişafının mümkün olan impulslarını üzə çıxarmaq.

Azadlığın strukturunda daxili və xarici (subyektiv və obyektiv) səpgilər xüsusilə mühm yer tutur. Qeyd olunan bölgünün əsası aşağıdakından ibarətdir: insanın praktiki fəaliyyəti gedişində azadlıq birdən-birə təzahür etmir, əvvəlcə fərd öz azadlığını subyektiv dərk edir, sonra isə müəyyən şərait və imkanlar çərçivəsində onu həyata keçirir.

Azadlığın daxili məzmunun təsnifatını verərkən, hər şeydən əvvəl, onun həcminə görə aparılan aşağıdakı bölgünü qeyd etmək zəruridir: a) insanın təbiət qüvvələri və prosesləri üzərində ağalığı, yəni onlara münasibətdə müstəqilliyi və azadlığı; b) fərdin və müxtəlif birlik formalarında təmsil olunmuş insanların, mövcud cəmiyyətin sosial münasibətlər sisteminə nəzərən götürülən müstəqilliyi; c) insanın öz-özü üzərində ağalığı, yəni insanın sözün həqiqi mənasında daxilən müstəqil olması, öz hərəkət və davranışını sərbəst idarə etməsi.

Şəxsiyyət azadlığının ilkin şərtləri qeyd olunur: insanın dərk edə bilmək qabiliyyəti (azadlığın nəzəri əsası), ünsiyyət məharəti (azadlığın reallaşmasının ən mühüm şərti), fəaliyyət göstərməsi (azadlığın real varlığı, onun mövcudluğu), onun mənlik şüurunun olması, yəni şəxsiyyətin öz əməllərinə görə müəyyən məsuliyyəti, öz həyat tərzinə və davranışına münasibəti, öz fəaliyyətinin mövcud dəyərlər sistemi ilə müqayisə edə bilməsi. Öz növbəsində mənlik şüuru (özünüdərk) bir sıra şərtlərin olmasını nəzərdə tutur: məqsədə nail olmaq üçün bu və ya digər şəkildə hərəkət etmək arzusu, predmetlər haqqında müəyyən biliyə malik olmaq və onların mənimsənilməsinin və dəyişdirilməsinin mümkünlüyünün başa düşülməsi.



WPS Office ile Düzenle

MÖVZU V. QƏDİM YUNAN FƏLSƏFƏSİNDƏ ŞƏXSİYYƏT AZADLIĞI ANLAYIŞINA DAİR BAXIŞLAR. (2 s)

İnsan şəxsiyyətinin tam bir arxayınlıqla yüksəldilməsi isəPlaton fəlsəfəsində baş verdi. Sadələşdirilmiş şəkildə ifadə olunsa, Platon sağlam şəhərdövlətin yaradılması üçün aşağıdakı şərti irəli sürmüşdür. Hakimiyyətə xalq və həmçinin də nadan və qəbahətli müstəbidlər deyil, o kəslər sahib olmalıdırlar ki, onlar idarə etməyi bacarırlar.

Azadlığa nail olmağın fərqli bir konsepsiyasını **Aristotel** təklif edirdi. Onun konsepsiyası etika, metafizika və siyasətin vəhdətinə əsaslanırdı. Aristotelin təqdim etdiyi insan özündə həm sosial, həm də təbii keyfiyyətləri birlşdirir və bunun da sayəsində o, “insanı siyasi heyvan” kimi müəyyən edir. Aristotelin fikrincə, bu insanın davranışının əsasında etiqad yox, Allahı anlamağa imkan verən fəlsəfi baxışlar sistemi durmalıdır. İnsan taleyin labüd hökmündən azaddır, fəaldır və gerçəkdir.

Epikurun naturfəlsəfəsi qədim Yunanistanın atomist fəlsəfəsinin inkişafının ən yüksək fəlsəfəsidir. Böyük yunan aliminin fikrincə, məkan, zaman və hərəkət obyektiv, əbədi və sonsuzdur. Bütün boşluqlarda atomlar mövcuddur. Alimə görə, allahlar mövcud və əbədi olub dünyanın işlərinə qarışmırlar. Epikur zərurət çərçivəsində azadlığın tapılmasını mümkün hesab edir. Belə bir orijinal fikrə gəlir ki, atomların hərəkəti zərurətə tabe olsa da, daxili xassələrlə– ağırlıqla (və digər xassələrlə) şərtlənir. Ona görə də atomların öz yolundan çıxması imkanı da vardır. Atomların öz hərəkəti ideyasına əsaslanan Epikur onu insan azadlığının zəruri şərti kimi şərh etmişdir.

Kiniklər xeyiri hər şeydən əvvəl, maddi rifahdan tam şəkildə asılı olmamaq kimi, öz təlabatını məhdudlaşdırmaq qabiliyyəti kimi başa



WPS Office ile Düzenle

düşürdülər. Onların fikrincə, müdrik elə adamdır ki, xeyir nə olduğunu bilir və təbii təlabatından kənara çıxmır. Qüsura gəldikdə isə o axmaq adamın öz xoşbəxtliyini başqa şeydə axtarması ilə əlaqadardır. Kiniklər bilə– bilə nimdaş paltarla kifayətlənir, yataq üçün quru yerdən istifadə edir, əllərinə nə düşdü onu yeyir, avara həyat tərzi keçirirdilər.Onlar abırsızlığı nimdaş paltarda gəzməkdə yox, hər hansı asılılıqda görürdülər. Stoiklərin nəzərincə, yalnız ağıllı insan həqiqətən azad ola bilər. Stoiklər təkcə ağılı deyil, həm də qəlbin vəziyyətini, insanın öz təbiətinə uyğun hərəkət etmək bacarığını müdrikliyin əsası hesab edir və deyirdilər ki ağıllı insan bütün ehtiras və əyləncələrdən əl çəkməli, ağlının hökmü ilə yaşamalıdır, insan yalnız bu yolla azad, fəal və xeyirxah ola bilər.

## MÖVZU VI. ORTA ƏSR FƏLSƏFƏSİNDƏ ŞƏXSİYYƏT AZADLIĞI ANLAYIŞI. İNTİBAH DÖVRÜN FƏLSƏFİ KONSEPSİYALARINDA AZADLIQ PROBLEMİ. (2 s)

İradə azadlığı problemi orta əsr mütəfəkkirlərinin, daim diqqət mərkəzində olmuşdur. Həmin dövrün filosofları üçün insan Təbiət daxilindəində azaddırsa, lakin Təbiətə nisbətdə azadlığı məhduddur, dini xadimləri üçün isə insan təbiətdən başqa Tanrı-Yaradıcı ilə bağlıdır, buda həmçinin mənəvi məsuliyyət (günah) nəzərdə tutur. Alın yazısından başqa azadlığı həmçinin “Günah etmək” da məhdudlaşdırır. İradə insanın mənəvi həyatının həlledici amili olaraq nəzərdən keçirilir.

Artıq XI-ci əsrdə *Anselm* Kenterberiyski vicdan azadlığını nəzərdə tutan sual qoyur – insan öz iradəsi ilə tanrıdan üz çevirə və eyni zamanda günahdan və cəzadan canını qurtara bilərmi? Söhbət xristianlıq dəyərləri sistemində olan və ya olmayan insanın vəziyyətindən gedir. İdeoloq-sxolostlar üçün həmçinin bu mənsubiyyətin ziddiyyətli (absurd) olmamağı vacib idi. Anselmə görə, insan tanrı neməti ilə manipulyasiya edir, lakin əgər



WPS Office ile Düzenle

azad iradə bu və ya digər çətinliklər səbəbindən öz düzgünlüyünü itirir və günaha xidmət edirsə, o özü artıq özünə bu düzgünlüyü qaytarmaq gücündə olmayacaqdır. İtirilmiş təmizliyi yalnız Tanrı qaytarır, bu da bir növ möcüzə və Tanrının lütfidir.

Xristian sivilizasiyasının yaranması və İntibah dövrünün prosesləri bizim tərəfimizdən azadlıq ideyasının fəlsəfi təkamülünün tarixi kontekstində götürülür.Bunun üçün, cəlb ediləcək antik irsə, şərq fəlsəfəsinə və s. müraciət lazımdır. Söhbət hər şeydən öncə, bu və ya digər sivilizasiyanın təkamül inkişafının sonrakı yolunun alternativ variantlarından tarixi seçim etməyə məcbur olduğu bir sıra ayrı-ayrı mədəniyyətlərin tarixində sözdə bifurkasiya (inqilab) adlandırılan dövrlərindən gedir. Bu dövrlərdə, azadlıq artır, və bu tendensiyanın fonunda ayrı-ayrı şəxsiyyətlərin tarixi prosesə təsir etmək üçün imkanı yaranır, çünki azadlıq problemləri daha dolğun şəkildə özünü göstərir.

Orta əsr dünyagörüşü ilə müqayisədə İntibah intellektuallarının dünyagörüşü üçün davranış paradiqmasının dəyişməsi səciyyəvidir: biz tanrının öhdəsində deyilik, biz tamamilə sərbəstik, biz azadıq. Azadlıq indi yalnız nəzəri məna deyil, həm də praktik məna kəsb edir. Bundan başqa, praktik ağıl (praktik azadlıq) humanistlərin və filosofların dillərində az qala nəzəri ağıldan üstün olur (əqli azadlıq).

## MÖVZU VII. İSLAM FƏLSƏFƏSİNDƏ İRADƏ AZADLIĞI PROBLEMİNİN QOYULUŞU. (2 s)

Orta əsrlərdə İslam dini zəminində yaranmış təlimlərdə iradə azadlığı məsələsi geniş yer almışdır. Əsas mübahisə cəbbarilər və qədərilər arasında getmişdir. Birinci təlimin tərəfdarları iddia edirdilər ki, iradə azadlığı mövcud deyildir, çünki allah insanları yaradarkən, onların bütün xeyir və şər əməllərini müəyyənləşdirmişdir. Bunun əksinə olaraq qədərilər



WPS Office ile Düzenle

göstərirdilər ki, iradə azadlığı qəbul edilməlidir, əks təqdirdə belə təsəvvür yaranır ki, insanların bütün günahları da ilahinin özü tərəfindən müəyyənləşdirilir, buna görə də onlar Allah qarşısında cavabdeh olmalı deyillər.

Şərq mədəniyyəti və həyat tərzi üçün səciyyəvi olan cəhətlər özünün müvafiq ifadəsini azadlıq ideyasına münasibətdə də tapır. Bunlar, mövcud sosial formaların təkrar istehsalının zəifliyi, həyat tərzində sabitliyin möhkəm olması, dini-mifoloji təsəvvürlərin üstün yer tutması, təfəkkür üsulunun reqlamentləşmiş olması, şəxsiyyətin fərdi xüsusiyyətlərinə məhəl qoyulmaması, onun maraqlarının bir növ kollektiv içərisində əridilib yoxa çıxarılması və sairdir.

İslamın ilk çağlarından bir sıra ilahiyyatçılar və ilahiyyat fəlsəfəsilə məşğul olan şəxslərin müəyyən ayə və hədislərə əsaslanması və zəmanənin hakim şəraitinin müəyyən təsirilə insanın iradə azadlığını inkar edən cəbərilik görüşləri təşəkkül tapmışdır. Cəbərilik (ərəbcə «əl-cəbəriyyə») - qədəriliyin əksi olan - Allahı aləmdə mövcud hərəkətlərin yeganə həqiqi müəllifi (həqiqi fail, fail bil-həqiqə) sayan və bundan irəli gələrək insanın öz əməllərində azad deyil, məcbur olduğunu qəbul edən əqidə sahiblərinə verilən addır.

İslam aləmində məşhur mötəzililik məktəbi bu cərəyanın təmsilçilərindən olmuşdur. Cəbərilər kimi qədəri əqidəsinin daşıyıcıları da öz görüşlərində ifrata varmışlar. Onlar cəbərilərin əksi olaraq, insanın hər bir işdə tam azad olduğunu iddia etmələrilə insan iradəsini ilahi iradədən kənarda, müstəqil qəbul etmişlər. Onlara görə Allah insana yaratma ixtiyarı verərək onu işlərində tam azad və sərbəst etmişdir. Allah insanın işlərinə hər cür müdaxilədən kənardır.

## MÖVZU VIII. YENİ DÖVR VƏ MAARİFÇİLİK DÖVRDƏ ŞƏXSİYYƏT AZADLIĞI PROBLEMİ. (2 s)



WPS Office ile Düzenle

Hobbsun siyasi nəzəriyyəsi yalnız son dərəcə ardıcıl bir təlim deyil, həmçinin də ilkin kapitalizm dövrü burjuaziyasının sadələşdirilmiş təsviri kimi də xidmət edə bilər. Burjuaziya – maddi nemətlərin qıtlığı mövcud olan dünyada sağ qalmaq uğrunda gündəlik mübarizə aparan insani atomların yığımıdır. Bu insani atomları birləşdirən əlaqələr zəkavi şəxsi maraqlardır. İnsani atomların bağladıqları ticari müqavilələrin müdafiə olunma forması kimi mütləqiyyətçi hakimiyyətə malik olan dövlətə ehtiyac vardır. Başqa sözlə, dövlət fərdlər üçün mövcuddur.

Substansiya və atribut arasındakı münasibət səbəbiyyət əlaqəsi deyildir. Substansiyada baş verənlər iki atributun hər birinin uyğun hadisələrin səbəbi deyildir. Baş verən hər bir şey substansiyada baş verir, amma özünü iki aspektdə – məkanda yer tuta bilmədə və təfəkkürdə - göstərir. Substansiya və atribut arasındakı əlaqədən və ya münasibətdən sanki söhbətin bir-birinə qarşı müəyyən münasibətdə olan iki fenomendən getdiyi kimi danışmaq da həmçinin kökündən səhvdir. Atributlar substansiyanın yalnız təzahür üsullarıdır.

Biz həmçinin məcburiyyət barədə də danışa bilmərik, əgər məcburiyyət anlayışı altında bir hadisənin başqa birisinə onun iradəsinə və ya mahiyyətinə əks olaraq təsir göstərdiyini başa düşsək. Axı burada biz əslində yalnız bir fenomeni - substansiyanı nəzərdən keçiririk. Təfəkkürdə və məkanda yer tuta bilmə sferasında baş verənlər substansiya tərəfindən məcburiyyətin nəticəsi ola bilməz, belə ki, həm təfəkkürdə, həm də məkanda yer tuta bilmə sferasında baş verənlər yalnız substansiyada baş verənlərin təzahür formalarıdır.

Maarifçilər belə güman edirdilər ki, şər ənənələr və imtiyazlar tərəfindən dəstəklənən nadanlıq və dözümsüzlük ucbatından baş verir. Buna görə də, onun əlacı maarifçilik olmalıdır. O zaman ki, zəka və elm qələbə çalacaqdır, o zaman tərəqqinin ardınca insanda olan xeyirxahlıq da artacaqdır. Russo isə əmin idi ki, şər sivilizasiyanın özündədir. Onun Dijon



WPS Office ile Düzenle

Akademiyasının mükafatını qazanan essesinin sensasion nəticəsi belə idi. İnkişaf süni və tənəzzülə istiqamətli olan sivilizasiyaya gətirib çıxarır. Bu essedə Russo tərəqqiyə olan inamı tənqid edir və romantizmin müqəddəm şərtlərini qoyur: şəhər həyatı və elmlər insanda yaxşı və təbii olan hər şeyi korlayır.

## MÖVZU IX. ŞƏXSİYYƏT AZADLIĞI PROBLEMİ KLASSİK ALMAN FƏLSƏFƏSİNDƏ. (2 s)

Kant klassik alman fəlsəfəsinin ən görkəmli nümayəndələrindəndir. Tarixi səbəblər ucbatından, Kant da liberalistlər və utilitaristlər kimi, insana və cəmiyyətə münasibətdə sosioloji yanaşmaya malik deyildi. O, özünün nəzəri çıxış nöqtəsi olaraq, hər şeydən öncə fərdi götürürdü. Amma borcu həzzə qarşı, əxlaqi iradəni (Gesinnung) isə nəticələrə qarşı qoyaraq, Kant utilitarist mütəfəkkirlərdən çox uzaq düşürdü. Onun siyasi nəzəriyyəsinin əsas ideyası - fərdin özlüyündə dəyərli olması (Selbstwert) haqqında təsəvvürdür. *Bu, özlüyündə dəyərli olma öz transsendental əsasını fərdin azadlığında, yəni fərdə xas olan əxlaqi qanunlar yaratmaq və bu qanunlara uyğun olaraq hərəkət etmək qabiliyyətində tapıdır.* Hər şeydən əlavə, bu, öz ardınca hamının prinsipial bərabərliyini çəkib gətirir. Hüquq və siyasi institutlar bu azadlığı və bərabərliyi müdafiə etməyə çalışmalıdırlar.

Hegel azadlıq problemində həm individualizdən, həm də kollektivizmdən uzaqlaşır. Bu mövqelərin hər ikisi abstraksiyadır. Hər iki mövqedə fiksiyalarla əməliyyat aparır: İndividualizm - atomistik, tarixdən kənar və özlüyündə yetərli olan fərdlə; kollektivizm isə – onda yaşayan insanlardan ayrı, müstəqil meydana çıxan dövlətlə əlaqələndirilir. İnsan və dövlət daxilən bağlıdır. İnsan ilk dəfə indi olduğu kimi əxlaqi (sittlich) cəmiyyətdə baş verən özünüreallaşdırma vasitəsi ilə olur". Sonuncu Hegel



WPS Office ile Düzenle

üçün "dövlət" deməkdir. Amma insan "dövlətin" orqanik hissəsi olmazdan öncə ailə və sosial qrup kimi daha kiçik təsisatlarda yaşamalıdır. Və dövlət, öz növbəsində, müqaviləyə uyğun olaraq "yaradılmır", daha çox tarixdən "cücərir".

***İ.Q.Fixte*** (1762 – 1814-cü illər), inkişaf etdirir, o öz kritik sistemini əvvəlki doqmatik sistemlərlə müqayisə edir. O özünün ilkin prinsipini azadlıqla eyniləşdirirdi. Azadlığın köməyi ilə bütün mövcudiyyəti izah etməyə çalışırdı. Fixte hesab edirdi ki, şüur fərddə hazır şəkildə olmur, o özü -özünü törətmişdir. Şüur intellekt ilə verilmir, iradə ilə təsdiqlənir. İradə ağılın həyat prinsipidir. Onun özü – öz təmizliyində və müstəqilliyində nəzərdən keçirilən ağıldır. İradə öz-özlüyündə mövcuddur, o özü olmayan hər şeydən ayrıdır, və o özü vasitəsilə və özü üçün öz dünyasını təşkil edir; beləliklə, o yalnız tamamilə birincidir, ona görə ondan əvvəl heç nə yoxdur, amma ondan sonrada onun fəaliyyətini ona yad olan qanuna tabe edən heç bir düşünülən və anlaşılmış ikinci gəlmir.

Alman filosofu Şellinq azadlıq probleminə öz fəlsəfəsinə kifayət qədər böyük diqqət ayırmışdır. O Leybnits və Spinozanın fəlsəfə sistemlərində azadlıq anlayışının tənqidindən başlayıb, burada yalnız “sistemin azadlığı” yer alır və fərdi azadlıq olmadığını göstərirdi. Burada azadlıq ağıllı başlanğıcın hissiyyatlı başlanğıc və tamahlar üzərində olan hökmranlığından ibarət olduğunu bildirirdi.

## MÖVZU X. İRRASİONALİZM FƏLSƏFƏSİNDƏ ŞƏXSİYYƏT AZADLIĞI. (2 s)

Şopenhauerə görə, azadlıq, üç müxtəlif növə malikdir: fiziki, intellektual və əxlaqi. Fiziki azadlıq hər cür maddi maneələrin yoxluğudur: azad dünyagörüşü, azad məkan, çayın azad axını, azad yaşama, azad



WPS Office ile Düzenle

mətbuat və s Əxlaqi azadlıq, Şopenhauerə görə, "insan, heç bir maddi maneələrlə bağlı olmadan, yalnız, məsələn, təhdidlər, vədlər, təhlükələr və s. kimi motivlər səbəbi ilə iradəsinə uyğun olaraq etməli olduğu hərəkətlərdən çəkindiyi" hallarda özünü büruzə verir. İntellektual azadlığa Şopenhauer çox böyük diqqəti yetirirdi. O intellektual azadlığı özünüdərk əsasında qururdu. İnsan bilavasitə özü özünü necə dərk edir?

Yaspersə gör insan bir tədqiqat obyekti kimi və azadlıq kimi bir-birini prinsip etibarı ilə istisna edir. Dərk etdiyimiz obyektiv proseslər qeyri-azadlığa doğru hərəkətin mahiyyətidir. O, göstərirdi ki, biz özümüzü tədqiq etdiyimiz zaman, artıq azadlığı deyil, müəyyən varlığı, faniliyi, obrazı, əlaqəni, təsadüfi zəruriliyi görürük. Varlığımızı isə biz azadlığımızdan başa düşürük. İnsan özündə dünyada heç yerdə tapmadığı şeyi – nə isə bir dərkedilməz, sübutedilməz, nə isə qeyri-əyani, hər bir tədqiqat elmindən uzaqlaşan – azadlığı tapır. Azadlıqda hərəkətlərimizin başlanğıcları və varlığımızın idrakı birləşmişdir. Ancaq, insanın azadlığı onun faniliyinin idrakından ayrılmazdır.

*Sartr* deterministlərin və iradə azadlığı müdafiəçilərinin mövqeyini nəzərdən keçirirdi. Sonuncular motivləri eyni iki əks və eyni cür mümkün hərəkətə aid olan və əvvəlki motivlərin mövcud olmadığı halları axtarıb tapırdılar. Deterministlər hesab edirdi ki, motivsiz hərəkət yoxdur, hər bir hərəkətin hədəfi olmalıdır, hədəf bizi motivə yönəldir. Beləliklə hədəfin, motivin və hərəkətin birliyi əmələ gəlir.

